# Xocalı bizim ümumi yaddaşımızın canlı rəmzidir




**"Hazırkı mərhələdə Xocalı soyqırımının aparıcı beynəlxalq təşkilatlar tərəfindən hüquqi baxımdan tanınması son dərəcə mürəkkəb və uzunmüddətli proses olaraq qalır".**

Bunu israilli politoloq, İsrail-Azərbaycan "Azİz" Beynəlxalq Assosiasiyasının III prezidenti Lev Spivak Xocalı faciəsinin beynəlxalq səviyyədə tanınması istiqamətində mövcud çətinliklər və İsraildə həyata keçirilən maarifləndirmə təşəbbüsləri barədə AZƏRTAC-a açıqlamasında bildirib.

Onun sözlərinə görə, Azərbaycan-Ermənistan münaqişəsi kontekstində baş verən hadisələr beynəlxalq müstəvidə tez-tez qeyri-birmənalı şəkildə şərh olunur, Avropa siyasi dairələrində və mediada isə hələ də ikili standartlar öz təsirini saxlayır: "Bu maneələri aşmaq, mövcud yanaşmaları dəyişmək üçün illər, bəlkə də onilliklər tələb oluna bilər. Lakin bu, bizim geri çəkilməli olduğumuz anlamına gəlmir".

Lev Spivak vurğulayıb ki, əsas vəzifə Xocalı faciəsinin unudulmasına imkan verməməkdir. Bu ağrını yaddaşdan silməmək bizim borcumuzdur. Yalnız kollektiv yaddaş bu cür faciələrin bir daha təkrarlanmamasına təminat verə bilər.

İsrailli politoloq bildirib ki, İsraildə Xocalı qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbirləri hər il mütəmadi şəkildə keçirilir. Biz bu tədbirləri hər dəfə fərqli şəhərlərdə və müxtəlif formatlarda təşkil etməyə çalışırıq ki, təkcə Azərbaycan icması və azərbaycanlılar deyil, Xocalı haqqında əvvəllər heç nə eşitməmiş israillilər də bu faciə ilə tanış olsunlar. Anım tədbirlərində İsrail hökumət üzvləri, Knessetin deputatları, Azərbaycan siyasətçiləri, Milli Məclisin deputatları, şəhər merləri və onların müavinləri iştirak edirlər. Tədbirlərin formatı isə elmi konfranslardan və fotosərgilərdən tutmuş xeyriyyə məqsədli klassik musiqi konsertlərinədək geniş spektri əhatə edir. Bu çərçivədə sənədli filmlər nümayiş etdirilir, Xocalı həqiqətləri barədə dolğun məlumatlar təqdim olunur.

İsraildə salınmış "Xocalı 613" xatirə meşəsinin əhəmiyyətini xüsusi olaraq vurğulayan Lev Spivak deyib: "Bu meşə Prezident meşəsində, İsrailin ilk prezidenti Xaim Veytsmanın adını daşıyan ərazidə salınıb və Xocalıda həlak olmuş 613 nəfərin hər birinin xatirəsinə həsr olunub. Bu, bizim ümumi yaddaşımızın canlı rəmzidir. Yerli sakinlər bəzən bu mövzunun gündəmdə saxlanılmasının səbəbini soruşurlar. Biz onlara deyirik ki, ətrafınıza baxın. Bu cür faciələr bu gün də dünyanın müxtəlif yerlərində baş verir. Yaxınlığınızda yaşayan bir insan üçün Xocalı, sadəcə, tarix deyil, şəxsi ağrıdır".

Lev Spivak qeyd edib ki, fotosərgilərdə tez-tez Xocalı faciəsini əks etdirən məşhur bir foto nümayiş olunur. Həmin fotodakı şəxs bu gün İsraildə, Netaniya şəhərində yaşayır və tədbirlərə qatılaraq deyir: "Mən buradayam, İsrail vətəndaşıyam və bu, mənim ağrımdır. Canlı şahidlər danışanda insanlar bu tarixə daha dərindən anlayış və hörmətlə yanaşmağa başlayırlar".

Politoloq sonda vurğulayıb ki, Xocalı faciəsinin beynəlxalq miqyasda tanıdılması üçün bu cür təşəbbüslər dünyanın müxtəlif ölkələrində davam etdirilməlidir.

Azərbaycan.- 2026.- 28 fevral (№ 39).- S.10.